Qeyri-rəsmi tərcümə (taslak)

# TÜRK ŞURASI TÜRK UNİVERSİTETLƏR BİRLİYİ TƏLƏBƏ ŞURASI DİREKTİVİ

## BİRİNCİ HİSSƏ

### Məqsəd, əhatə, əsas və anlayışlar

**Məqsəd**

**Maddə 1** - (1) Bu Direktivin məqsədi; Türk Şurası Türk Universitetlər Birliyinə üzv universitetlərin tələbələri arasında təhsil, idman və mədəni sahələrdə əməkdaşlığı və inkişafı təmin etmək üçün Tələbə Şurasının yaradılmasından və yaradılacaq Şuranın quruluş, vəzifə, səlahiyyət və iş əsaslarının tənzimlənməsindən ibarətdir.

**Əhatə**

**Maddə 2** - (1) Bu Direktiv; Türk Şurası Türk Universitetlər Birliyinə üzv universitetlərin tələbələrini təmsil etmək səlahiyyəti ilə yaradılacaq olan Türk Şurası Türk Universitetlər Birliyi Tələbə Şurasının quruluş, vəzifə, səlahiyyət və iş əsasları ilə bağlı müddəaları əks etdirir.

**Əsas**

**Maddə 3** - (1) Bu Direktiv 22 noyabr 2013-cü il tarixində Əskişəhərdə keçirilən Türk Şurası Təhsil Nazirlərinin iclasında qəbul edilən Qərarla təsdiq olunan Türk Universitetlər Birliyi Ali Təhsil Sahəsi Yaratma Direktivinin 6-cı maddəsinin 11 və 12-ci bəndlərinə əsasən hazırlanmışdır.

**Anlayışlar**

**Maddə 4** - (1) Bu Direktivdə əks olunan;

a) Birlik - Türk Şurası çərçivəsində yaradılan Türk Universitetlər Birliyi,

b) Tələbə Şurası - Birliyə üzv universitetlərin hər birindən 1 tələbə olmaqla seçilən şura,

c) Katiblik - Türk Şurası Katibliyi,

d) Türk Şurası - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası,

deməkdir.

## İKİNCİ BÖLÜM

### Nümayəndə seçimi, Şuranın vəzifələri və iş əsasları

**Tələbə nümayəndələrinin seçilməsinə dair ümumi əsaslar**

**Maddə 5** - (1) Birliyə üzv ölkələrdə Tələbə Şurası üzvlərinin müəyyən olunması və orqanlarının yaradılması üçün keçiriləcək seçkilər Katibliyin Sədr universitet ilə bərabər müəyyən edəcəyi təqvim, müddət və proqram əsas götürülərək Birliyin üzv universitetləri tərəfindən həyata keçirilir.

**Namizədlər üçün nəzərdə tutulan şərtlər**

**Maddə 6** - (1) Tələbə Şurasına seçiləcək tələbə nümayəndələrin magistr və ya doktorluq dərəcəsinin, ölkəsini təmsil etmə qabiliyyətinin və bacarığının olması vacibdir.

**Tələbə Şurasının vəzifələri**

**Maddə 7** - (1) Üzv ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın təmin edilməsi çərçivəsində Tələbə Şurasının vəzifələri;

a ) Üzv universitetlərin tələbələri arasında əməkdaşlığı həyata keçirmək,

b) Üzv ölkələr arasında tələbə mübadiləsi proqramlarının tanıdılması və iştirak etmə fəaliyyətlərinə töhfə vermək,

c) Üzv ölkələr arasında mövcud olan mədəni və tarixi bağlardan çıxış edərək akademik sahədə lazımi işlərin görülməsi üçün layihələr hazırlamaq və tətbiq etmək.

**Şuranın iş əsasları**

**Maddə 8** - ( 1) Üzv dövlətlər bu Direktivdə əks olunan müddəalara zidd olmamaq şərtilə Tələbə Şurasında təmsil olunacaq tələbələrin seçilməsi ilə bağlı qaydaları öz qanunvericiliyinə əsasən müəyyənləşdirirlər.

(2) Tələbə Şurasının iş üsulu və əsasları aşağıdakı kimidir.

a ) Tələbə Şurasının başçısı Sədr Universitetin tələbəsidir

b) Tələbə Şurasının başçısı Universitetinin sədrliyi dövründə Şuraya rəhbərlik edir.

c) Tələbə Şurası ildə ən az bir dəfə olmaqla Sədr Universitet tərəfindən müəyyən olunan tarixdə və yerdə toplanır.

## ÜÇÜNCÜ BÖLÜM
## Müxtəlif və son müddəalar

**Tələbə Şurasının xərclərinin qarşılanması**

**Maddə 9** - (1) Tələbə Şurasındakı səlahiyyətli tələbələrin bu Direktivə əsaslanaraq ölkə daxili və ölkə xarici təyinatları mənsub olduqları ali təhsil müəssisələri tərəfindən həyata keçirilir və bununla bağlı xərclər qeyd olunan qurumlar tərəfindən qarşılanır.

**Tələbə Şurasının işlərinin əlaqələndirilməsi və həyata keçirilməsi**

**Maddə 10** - (1) Katiblik müvafiq ali təhsil müəssisələri ilə koordinasiya edərək və lazım gəldikdə əlaqədar qurum və təşkilatların təsdiqini alaraq Tələbə Şurasının işlərini həyata keçirir.

**Müddəa tətbiq olunmadıqda**

**Maddə 11** - (1) Bu Direktivin yerinə yetirilməsində müddəa olmadığı halda Birliyin Baş Məclisinin qərarları tətbiq olunur.

**Direktivin dilləri**

**Maddə 12** - (1) Bu Direktiv Azərbaycanca, qazaxca, qırğızca, türkcə və ingiliscə hazırlanmışdır.

**Qüvvəyə minmə**

**Maddə 13** - (1) Bu Direktivin müddəaları Birliyin Baş Məclisi tərəfindən qəbul edildikdən sonra Türk Şurası Təhsil Nazirlərinin toplantısında təsdiq olunduğu gün qüvvəyə minir.

**Həyata keçirilmə**

**Maddə 14** - (1) Bu Direktivin müddəaları Tələbə Şurası və Katiblik tərəfindən əməkdaşlıq çərçivəsində həyata keçirilir.